DOI: https://doi.org/10.36719/2663-4619/117/58-63

**Murad Kərimov**
Bakı Slavyan Universiteti
Magistrant
https://orcid.org/0009-0006-2535-7382
karimovmurad1122@gmail.com

# Müasir cəmiyyətdə gənclərin sosial identikliyinin formalaşdırılması

## Xülasə

Mədəniyyətlərarası dialoq müxtəlif etnik və mədəni mənsubiyyətlərə malik fərdlər arasında qarşılıqlı anlaşma, hörmət və əməkdaşlığın qurulması prosesidir. Bu dialoq yalnız fərqli mədəniyyətlərin bir-birinə qarşı dözümlü olması ilə deyil, eyni zamanda identikliklərin qarşılıqlı tanınması ilə mümkün olur. Gənclər bu dialoqun əsas daşıyıcıları hesab olunurlar. Onlar həm texnologiya vasitəsilə daha çox mədəniyyətlə tanış olurlar, həm də təhsil və sosial mühitlərdə müxtəlif mədəni qruplarla təmasda olurlar. Qloballaşma, urbanizasiya və texnoloji modernləşmə prosesi xalq və milli identiklik münasibətlərinə təsirsiz ötüşmür. Gənc nəsil arasında milli dəyərlərə marağın azalması, yerli mədəniyyətin arxa plana keçməsi və kosmopolit dünya görüşünün yayılması milli identikliyə təhdid yaradır. Belə şəraitdə xalqın mədəni irsini yaşatmaq, onu gənclərə ötürmək və milli identikliyi dinamik şəkildə qorumaq vacibdir.

Gənclər mədəniyyətlərarası dialoq prosesində stereotiplərdən uzaqlaşır, empati və qarşılıqlı anlaşma kimi sosial bacarıqları inkişaf etdirirlər. Bu isə onların fərdi və ictimai inkişafına töhfə verir.

***Açar sözlər:*** *identiklik, qloballaşma, sosial mühit, dialoq, urbanizasiya*

**Murad Karimov**
Baku Slavic University
Master student
https://orcid.org/0009-0006-2535-7382
karimovmurad1122@gmail.com

# Formation of Social Identity of Youth in Modern Society

## Abstract

Intercultural dialogue is a process of building mutual understanding, respect and cooperation between individuals of different ethnic and cultural backgrounds. This dialogue is possible not only through tolerance of different cultures towards each other, but also through mutual recognition of identities. Young people are considered the main carriers of this dialogue. They are increasingly familiar with culture through technology, and they also come into contact with different cultural groups in educational and social environments. The process of globalization, urbanization and technological modernization cannot remain without affecting the relations between people and national identity. The decline in interest in national values among the younger generation, the relegation of local culture to the background and the spread of a cosmopolitan worldview pose a threat to national identity. In such circumstances, it is important to keep the cultural heritage of the people alive, pass it on to young people and dynamically protect national identity.

In the process of intercultural dialogue, young people move away from stereotypes and develop social skills such as empathy and mutual understanding. This contributes to their individual and social development.

***Keywords:*** *identity, globalization, social environment, dialogue, urbanization*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Müasir dövrdə qlobal dəyişikliklər və sosial transformasiyalar, xüsusilə gənclərin sosial identliklərinin formalaşmasına təsir edən əsas amillərdən biri olmuşdur. Gənclər, texnoloji inqilab, urbanizasiya və qlobal əlaqələrin artması ilə daha müxtəlif və dinamik bir cəmiyyətdə böyüyürlər. Bu dəyişikliklər, gənclərin öz kimliklərini necə formalaşdırdıqları və hansı sosial mühitlərdə inkişaf etdiklərini əhəmiyyətli dərəcədə təsir edir. Eyni zamanda, qlobal mədəniyyətin artan təsiri, yerli və milli kimliklərə qarşı yeni çağırışlar irəli sürür. Gənclərin sosial identlikləri, yalnız fərdi inkişafları üçün deyil, həm də cəmiyyətin gələcəkdə necə formalaşacağı üçün vacibdir. Bu səbəbdən, gənclərin sosial identliklərinin formalaşmasının təhlili, yalnız sosial elmlər sahəsində deyil, cəmiyyətin ümumi inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir.

Müasir dövr cəmiyyətləri qloballaşmanın təsiri altında sürətlə dəyişməkdədir. Bu dəyişikliklər xüsusilə gənc nəslin sosiallaşma prosesinə, dəyərlər sisteminə və milli identikliyinə ciddi təsir göstərir. Milli identiklik — fərdin mənsub olduğu xalqın mədəni, tarixi və mənəvi xüsusiyyətlərini qəbul etməsi və bu kimliklə özünü ifadə etməsi kimi başa düşülür. Bu baxımdan gənclərin milli identikliyinin qorunması hər bir dövlətin ideoloji və mədəni siyasətinin əsas prioritetlərindən olmalıdır (Bayramov, 2012).

Milli identiklik, fərdin özünü müəyyən bir millətə mənsub hesab etməsi, milli dəyərləri mənimsəməsi və bu dəyərləri sosial münasibətlərdə ifadə etməsidir. Bu kimlik tarixi yaddaş, dil, din, mədəniyyət, adət-ənənə və sosial institutlar vasitəsilə formalaşır. Azərbaycan alimlərindən A.Bayramov fikrincə, həm fərdin, həm də kollektiv şüurun struktur komponenti olan milli identiklik xalqın mövcudluğunu, davamlı olmasını təminatçısıdır. Başqa sözlə desək, identiklik xalqların varlığının təmini sahəsində əsas və mühüm faktor rolunu oynayır (Taylor, 2007).

Milli identiklik və xalq anlayışları bir-biri ilə sıx bağlı olan, lakin fərqli məzmun və funksiyalara malik olan sosial-siyasi və mədəni kateqoriyalardır. “Xalq” anlayışı etnik, dil, mədəniyyət və tarixi ortaq xüsusiyyətlərə malik olan bir sosial birliyi ifadə edir. Milli identiklik isə bu birliyə mənsub olan fərdin və ya cəmiyyətin özünü həmin xalqla eyniləşdirmə prosesidir. Müasir dövrdə bu iki anlayışın qarşılıqlı münasibətini dərk etmək milli ideologiyaların və mədəni siyasətlərin formalaşmasında mühüm rol oynayır (Bem, 1981).

**Tədqiqat**

Xalq — ortaq tarixə, dilə, mədəniyyətə, əraziyə və iqtisadi həyat tərzinə malik olan insanların tarixi formalaşmış birliyidir. O, sadəcə bioloji və ya coğrafi birlik deyil, həm də sosial-mədəni və psixoloji bir varlıqdır. Xalqın tarixi yaddaşı, mənəvi dəyərləri, folkloru və ədəbiyyatı onun fərqli və təkrarsız kimliyini yaradır. Əslində xalq milli varlığın əsası, milli identikliyin daşıyıcısı və qoruyucusudur. Stuart Hall bu barədə yazır: “Xalq mədəniyyəti sadəcə keçmişin mirası deyil, həm də davam edən sosial təcrübələrin məhsuludur” (Hall, 1996).

Milli identiklik fərdin və ya sosial qrupun özünü müəyyən bir millətə mənsub hiss etməsi və bu mənsubiyyətlə özünü təqdim etməsidir. Bu identiklik özündə aşağıdakı komponentləri birləşdirir:

1. Tarixi yaddaş – xalqın keçmişi ilə bağlı ortaq təsəvvürlər;
2. Dil – milli kimliyin ən vacib daşıyıcısı;
3. Mədəniyyət və din – rituallar, adət-ənənələr, bayramlar və dini inanclar;
4. Simvollar və rəmzlər – bayraq, himn, milli qəhrəmanlar;
5. Psixoloji mənsubluq hissi – “biz” hissinin formalaşması.

Milli identiklik xalqın varlığını qoruyan daxili konsolidasiya mexanizmidir. Əgər xalq bu identikliyi itirərsə, zamanla assimilyasiyaya və parçalanmaya məruz qala bilər.

Xalq və milli identiklik bir-birini tamamlayan anlayışlardır. Xalq — milli identikliyə sosial və tarixi əsas verir, milli identiklik isə xalqı bir arada tutan mənəvi bağ rolunu oynayır. Belə ki:

- Xalq milli identikliyin sosial kontekstini təmin edir.
- Milli identiklik xalqın ideoloji və mədəni şüurunu formalaşdırır.
- Xalq milli identikliyin daşıyıcısı və davamçısıdır.

Ən əsası, milli identiklik yalnız fərdin öz daxilində yaşadığı hiss deyil, həm də ictimai və mədəni institutlar vasitəsilə möhkəmləndirilən sosial konstruksiyadır. Ə. Cəfərlinin fikrincə xalqın milli şüurunun bələdçisi kimi milli identiklik əsas bələdçi rolunu oynayır (Cəfərli, 2011, s. 72).

Qloballaşma — iqtisadi, siyasi və mədəni sərhədlərin zəiflədiyi, fərqli mədəniyyətlərin bir-biri ilə sıx qarşılıqlı təsirdə olduğu dövrdür. Bu proses özündə texnoloji inkişafı, informasiya axınının artmasını və dünya miqyasında inteqrasiyanı ehtiva edir. Lakin bu prosesin mənfi nəticələrindən biri də milli mədəniyyətlərin və identikliklərin zəifləməsi riskidir.

Sosioloq A.Qiddens qeyd edir: "Qloballaşma mədəni sərhədləri bulanıqlaşdırmaqla, fərdlərin kimliklərinin yenidən formalaşmasına səbəb olur" (Giddens, 2002, s. 75). Bu kontekstdə gənclər xarici mədəniyyətlərin təsiri altına düşərək, öz milli dəyərlərindən uzaqlaşa bilərlər.

Qloballaşma, urbanizasiya və texnoloji modernləşmə prosesi xalq və milli identiklik münasibətlərinə təsirsiz ötüşmür. Gənc nəsil arasında milli dəyərlərə marağın azalması, yerli mədəniyyətin arxa plana keçməsi və kosmopolit dünya görüşünün yayılması milli identikliyə təhdid yaradır. Belə şəraitdə xalqın mədəni irsini yaşatmaq, onu gənclərə ötürmək və milli identikliyi dinamik şəkildə qorumaq vacibdir. Qloballaşma nəticəsində (Erikson, 1959):

- Dil təsirləri: Xarici dillərin, xüsusən də ingilis dilinin geniş yayılması ana dilin istifadəsini zəiflədə bilər. Gənclərin gündəlik ünsiyyətdə xarici sözlərdən istifadə etməsi milli dildə fikir ifadə etmə qabiliyyətini zəiflədir.
- Mədəni assimilyasiya: Pop mədəniyyət, şou-biznes, internet trendləri yerli mədəni dəyərlərin arxa plana keçməsinə səbəb ola bilər.
- İnformasiya mühiti: Sosial media və qlobal informasiya resursları vasitəsilə gənclər qeyri-milli ideologiyalara meyil göstərə bilərlər.

Ə.Hüseynov yazır: "Mədəni qloballaşma nəticəsində gənclər milli kimliyə əsaslanan dəyərlər sistemindən uzaqlaşaraq, qərb yönümlü həyat tərzini ideal model kimi qəbul edirlər" (Hüseynov, 2015, s. 63).

Milli identikliyi qoruma yolları. Bu prosesin qarşısını almaq üçün aşağıdakı istiqamətlərdə fəaliyyət vacibdir:

1. Təhsildə milli dəyərlərin inteqrasiyası – Tədris proqramlarında milli tarix, mədəniyyət, dil və ədəbiyyat dərslərinin gücləndirilməsi.
2. Milli media və mədəniyyət siyasəti – Yerli film, musiqi və ədəbiyyat nümunələrinin təşviqi.
3. Ailə və məktəb əməkdaşlığı – Gənclərin sosiallaşma prosesində milli identikliyin formalaşmasına ailə və məktəb birgə təsir etməlidir.
4. İKT-dən istifadə – Milli mədəniyyətin rəqəmsal formatda yayılması və sosial mediada təbliğ olunması.

Beləliklə, nəticə olaraq demək olar ki, qloballaşma həm fürsətlər, həm də təhdidlər yaradan bir prosesdir. Gənclərin milli identikliyinin qorunması üçün cəmiyyətin bütün institutları — ailə, məktəb, dövlət və KİV birgə fəaliyyət göstərməlidir. Qloballaşmanın gətirdiyi çağırışlara qarşı milli özünüdərk və milli dəyərlərə sadiqlik vacibdir. Əks təqdirdə, milli identiklik tədricən zəifləyərək, milli varlığın özülünü sarsıda bilər (Erikson, 1959).

Milli identiklik xalqın mövcudluğu və inkişafı üçün mühüm rol oynayan psixoloji və mədəni bir konsepsiyadır. Xalq bu identikliyi daşıyan, formalaşdıran və nəsildən-nəslə ötürən canlı bir sistemdir. Dövlət və cəmiyyət səviyyəsində milli identikliyin gücləndirilməsi, xalqın öz tarixi və mədəni varlığına sahib çıxması ilə mümkündür. Bu isə milli dilə, tarixə və mədəni irsə hörmətlə yanaşmaqdan başlayır (Steinberg, 2014).

Yuxarıda da qeyd edildiyi kimi, sosial identiklik, insanın özünü necə hiss etməsi, kim olduğunu anlaması və bu anlayışın cəmiyyətlə olan əlaqəsindən qaynaqlanan bir konsepsiyadır. Gənclərin sosial identikliyi isə daha xüsusi bir problematikadır, çünki bu dövr insanın öz şəxsiyyətini, sosial rolunu və yerini aydınlaşdırmağa çalışdığı bir dövrdür. Müasir dövrün sürətli dəyişən sosial, mədəni və texnoloji mühiti, gənclərin sosial identikliyinin formalaşmasında vacib təsir göstərə biləcək bir sıra amilləri də gündəmə gətirir. Sosial şəbəkələr, qloballaşma, mədəni müxtəliflik və texnoloji inqilablar, gənclərin öz kimliklərini inkişaf etdirmələrində yeni imkanlar yaratdığı kimi, eyni zamanda onlara

bəzi çətinliklər də yaradır. Bu səbəbdən, gənclərin sosial identikliyini sağlam və möhkəm şəkildə formalaşdırmaq üçün təkliflər və tövsiyələr təqdim edirik (Məmmədov, 2014).

1. Ailə və ənənəvi dəyərlərin rolunun gücləndirilməsi. Ailə, bir insanın ilk sosial təcrübələrini yaşadığı yerdir və bu təcrübələr şəxsin gələcək sosial kimlik formalaşmasında əhəmiyyətli rol oynayır. Gənclərin sosial identikliyinin əsasını təşkil edən ailə dəyərləri, onların dünya görüşünü və sosial münasibətlərini müəyyən edir. Müasir cəmiyyətdə gənclər getdikcə daha çox qlobal dəyərlərlə təmasda olsa da, ailə və ənənəvi dəyərlərdən asılı qalmaq gənclərin düzgün və sağlam şəxsiyyət inkişafını təmin edə bilər (Fowler, 1981).

Tövsiyə edirik ki, ailə üzvləri arasında sağlam və açıq dialoqlar təşviq edilməlidir. Gənclərə öz hisslərini ifadə etmələri və ailə üzvləri ilə problemləri müzakirə etmələri üçün imkanlar yaradılmalıdır.

Gənclərə ailə və ənənəvi dəyərlərin əhəmiyyəti barədə təlimlər və təcrübələr təqdim olunmalıdır. Bu, gənclərin cəmiyyətdəki yerini daha yaxşı anlamalarına və sosial mənsubiyyətlərini möhkəmləndirmələrinə kömək edəcək.

2. Peşəkar təlimlər və təhsil imkanlarının artırılması. Müasir dövrdə sosial identikliyini formalaşdırmaq üçün təhsil və peşəkar inkişaf çox vacibdir. Gənclər, xüsusilə universitet və məktəb dövründə, öz maraqlarını, bacarıqlarını və dünyagörüşlərini inkişaf etdirmək üçün mühüm fürsətlərə sahibdirlər. Təhsil yalnız bilik vermir, həm də şəxsiyyətin formalaşmasında, peşəkar bacarıqların inkişafında və sosial əlaqələrin qurulmasında böyük rol oynayır.

Gənclərin şəxsi və peşəkar inkişaflarına yönəlik müxtəlif təlim və seminarlar təşkil olunmalıdır. Bu proqramlar gənclərin gələcəkdə peşəkar və ictimai həyatlarına müsbət təsir göstərə bilər.

Məktəb və universitetlərdə gənclərin liderlik bacarıqlarını inkişaf etdirən, komanda işini təşviq edən və şəxsi kimlik formalaşdıran proqramlar həyata keçirilməlidir.

3. Sosial şəbəkələrin təhlükəsiz istifadəsi və kimlik insiyativasının təşviqi. Bugünkü cəmiyyətdə sosial şəbəkələr, gənclərin öz sosial kimliklərini formalaşdıran vacib alətlərdən biridir. Sosial mediada qarşılıqlı əlaqələr, paylaşım və təsvirlər vasitəsilə gənclər özlərini tanıdıb, kimliklərini ifadə edirlər. Bununla yanaşı, sosial şəbəkələrin müəyyən riskləri də mövcuddur. Yalan məlumatlar, sosial təzyiq, kimlik itirilməsi və digər mənfi hallarla qarşılaşmaq mümkündür.

Gənclərə sosial şəbəkələrdə təhlükəsiz və müsbət kimlik inşası haqqında təlimlər verilməlidir. Onlara sosial mediada özlərini necə daha sağlam şəkildə təqdim edə biləcəkləri öyrədilməlidir.

Sosial şəbəkələrdə gənclərə qarşı təzyiqin və neqativ təsirlərin qarşısını almaq üçün psixoloji dəstək xidmətləri təklif edilməlidir.

4. Mədəni müxtəliflik və qlobal dəyərlərə hörmətin təkmilləşdirilməsi. Qloballaşmanın təsiri ilə, gənclər müxtəlif mədəniyyətlərə və dəyərlərə məruz qalır. Bu, onların öz kimliklərini formalaşdırarkən müxtəlif mədəniyyətlərdən təsirlənməsinə səbəb ola bilər. Gənclərin sosial kimliklərinin formalaşmasında, digər mədəniyyətlərə hörmət və onlardan faydalı dərslər çıxarmaq önəmlidir.

Ümumiyyətlə, mədəniyyətlərarası dialoq müxtəlif etnik və mədəni mənsubiyyətlərə malik fərdlər arasında qarşılıqlı anlaşma, hörmət və əməkdaşlığın qurulması prosesidir. Bu dialoq yalnız fərqli mədəniyyətlərin bir-birinə qarşı dözümlü olması ilə deyil, eyni zamanda identikliklərin qarşılıqlı tanınması ilə mümkün olur. Gənclər bu dialoqun əsas daşıyıcıları hesab olunurlar. Onlar həm texnologiya vasitəsilə daha çox mədəniyyətlə tanış olurlar, həm də təhsil və sosial mühitlərdə müxtəlif mədəni qruplarla təmasda olurlar (Marcia, 1966).

Gənclik və identiklik arasındakı qarşılıqlı münasibət, Eriksonun (1968) identiklik nəzəriyyəsinə əsaslanaraq daha aydın başa düşülə bilər. Eriksona görə, gənclər "identiklik böhranı" yaşayaraq kim olduqlarına qərar verir və özlərini sosial kontekstə uyğunlaşdırmağa çalışırlar. Bu mərhələdə gəncin həm öz mədəniyyətinə, həm də digər mədəniyyətlərə münasibəti formalaşır. "İdentikliyini formalaşdıran gənc, eyni zamanda digər mədəniyyətlərin nümayəndələri ilə qarşılıqlı münasibətlər quraraq öz mədəni kimliyinin sərhədlərini müəyyənləşdirir" (Phinney, 1990).

Gənclər mədəniyyətlərarası dialoq prosesində stereotiplərdən uzaqlaşır, empati və qarşılıqlı anlaşma kimi sosial bacarıqları inkişaf etdirirlər. Bu isə onların fərdi və ictimai inkişafına töhfə verir.

Multikultural cəmiyyətlərdə yaşayan gənclər üçün isə bu proses daha da əhəmiyyətlidir. Onlar bir tərəfdən öz mədəni kimliklərini qorumağa çalışır, digər tərəfdən isə dominant mədəniyyətlə inteqrasiya edirlər. Berry (2001) bu prosesi dörd istiqamətdə izah edir: inteqrasiya, assimilyasiya, ayrıseçkilik və marjinallaşma. İnkişaf etmiş cəmiyyətlər gənclərin bu identiklik keçidini daha sağlam keçmələri üçün tolerantlıq, multikulturalizm və dialoqa əsaslanan siyasətlər yürüdür. "Mədəniyyətlərarası dialoq bir körpüdür – bu körpü vasitəsilə gənclər həm öz köklərinə sadiq qalır, həm də başqa dünyagörüşlərini mənimsəməyi öyrənirlər".

Təhsil və sosial platformalar, identiklik və mədəniyyətlərarası dialoqun əsas təşviqçiləri hesab olunur. Məktəblərdə tolerantlıq və müxtəliflik mövzusunda aparılan maarifləndirici tədbirlər, beynəlxalq mübadilə proqramları, mədəniyyət festivalları və sosial şəbəkələr bu baxımdan mühüm rol oynayır.

5. Psixoloji dəstəyin təşviqi. Gənclərin sosial kimlik formalaşdırması prosesi zaman-zaman çətin və mürəkkəb ola bilər. Kimlik böhranları, özünü tapmaqda çətinliklər və emosional təzyiqlər gənclərin sağlam inkişafını poza bilər. Bu vəziyyətdə, psixoloji dəstəyin vacibliyi daha da artır (Tajfel, 1982).

Gənclərin psixoloji sağlamlığını qorumaq üçün məktəblərdə və universitetlərdə psixoloji xidmətlər və məsləhət xidməti təqdim edilməlidir.

Gənclərə öz duyğularını idarə etmə, stresle mübarizə və öz şəxsiyyətini inşa etmə bacarıqları öyrədilməlidir (Super, 1980).

6. Cinsiyyət bərabərliyi və sosial ədalətin təşviqi. Cinsiyyətlər arasında fərqliliklər və gender stereotipləri, gənclərin sosial kimliklərinin formalaşmasında mühüm rol oynayır. Cinsiyyət bərabərliyinin təmin olunmaması, müəyyən qrupların sosial kimlik inkişafına mənfi təsir göstərə bilər.

Cinsiyyət bərabərliyini təşviq edən təhsil proqramları və sosial kampaniyalar keçirilərək, gənclərin gender bərabərliyinə daha çox dəyər verməsi təmin edilməlidir.

Gender stereotiplərinin qarşısını almaq üçün müvafiq təhsil materialları hazırlanmalı və cinsiyyət bərabərliyi haqqında maarifləndirmə işləri aparılmalıdır (Turkle, 1995).

## Nəticə

Beləliklə, gənclərin sosial identikliyinin formalaşdırılması, yalnız cəmiyyətin inkişafı üçün deyil, həm də gənclərin özlərinin psixoloji və emosional rifahı üçün çox vacibdir. Ailə, təhsil, sosial şəbəkələr, mədəni müxtəliflik, psixoloji dəstək və cinsiyyət bərabərliyi kimi sahələrdə atılacaq düzgün addımlar, gənclərin sağlam və möhkəm sosial kimliklər formalaşdırmalarına kömək edəcək. Müasir cəmiyyətin qarşısında duran əsas məsələ, gənclərin kimliklərini formalaşdırmaq üçün uyğun mühit yaratmaq və onlara öz şəxsiyyətlərini inkişaf etdirmək üçün dəstək olmaqdır.

Gənclərə mədəni müxtəliflik barədə təhsil verilməli, müxtəlif mədəniyyətlərin və xalqların tarixini və ənənələrini öyrənmək üçün müvafiq təlimlər keçirilməlidir.

Mədəniyyətlərarası dialoqu və qarşılıqlı hörməti təşviq edən proqramlar və tədbirlər təşkil olunmalıdır.

## Ədəbiyyat

1. Bayramov, A. (2012). *Milli identiklik və qloballaşma problemləri*. Bakı: Elm.
2. Bem, S. L. (1981). Gender schema theory. *Psychological Review*.
3. Cəfərli, Ə. (2011). *Milli identiklik və xalqın tarixi yaddaşı*. Bakı: Təhsil.
4. Erikson, E. H. (1959). *Identity and the life cycle*. New York: International Universities Press.
5. Erikson, E. H. (1968). *Identity: Youth and crisis*. New York: Norton.
6. Fowler, J. W. (1981). *Stages of faith: The psychology of human development*. HarperCollins.
7. Giddens, A. (2002). *Modernləşmə və fərdi kimlik*. London: Polity Press.
8. Hall, S. (1996). Who needs identity? In S. Hall & P. du Gay (Eds.), *Questions of cultural identity* (pp. 1–17). London: SAGE Publications.

9. Hüseynov, Ə. (2015). Gənclərin milli-mənəvi dəyərlərə münasibətində müasir çağırışlar. *Azərbaycan məktəbi*, (4), 61–67.
10. Marcia, J. E. (1966). Development and validation of ego-identity status. *Journal of Personality and Social Psychology*, *3*(5), 551–558.
11. Məmmədov, R. (2014). Milli identiklik və onun qorunması problemləri. *Azərbaycan məktəbi*, (2), 65–70.
12. Phinney, J. S. (1990). Ethnic identity in adolescents and adults: Review of research. *Psychological Bulletin*, *108*(3), 499–514.
13. Steinberg, L. (2014). *Age of opportunity: Lessons from the new science of adolescence*. Houghton Mifflin Harcourt.
14. Super, D. E. (1980). A life-span, life-space approach to career development. *Journal of Vocational Behavior*, *16*(3), 282–298.
15. Tajfel, H. (1982). *Social identity and intergroup relations*. Cambridge & Paris: Cambridge University Press & Maison des Sciences de l'Homme.
16. Taylor, C. (2007). *A secular age*. Harvard University Press.
17. Turkle, S. (1995). *Life on the screen: Identity in the age of the internet*. Simon & Schuster.